- yüksək texnologiyaların inkişafı, yeni xidmət və məhsulların formalaşdırılması, eləcə də rəqabətə davamlılığın artırılması.

Sahibkaralara göstərilən diqqət və qayğını nəzərə alaraq onu qeyd edə bilərik ki, sahibkarlar da öz müəssisələrini müasir standartlara uyğun yaratmalı, ixtisaslaşmış menecerlərini işə cəlb etməli və peşəkarlıqlarını artırmalı, rəqabətə davamlı məhsulları ixrac bazarlarında istehsal etməlidirlər.

Ədəbiyyat siyahısı:

1. Sahibkarlıq Fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu, Bakı-1992.
2. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi, Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 6 dekabr 2016-cı il, № 1138.
3. Abbasov A.B. "Sahibkarlıq fəaliyyətinin: təşəkkülü, növləri və inkişaf problemləri", Bakı-1998, s-214.
4. Seyfullayev İ.Z., Musayev V.B. Sahibkarlığın əsasları, Bakı-2002.
5. Azərbaycan 2020: milli iqtisadi inkişaf və səmərəli yüksəlişin problemləri. Azərbaycanın Vergi jurnali. 4/2012, Səh.135-146.

## YAŞIL SAHIBKARLIQ KONSEPSIYASININ TƏTBIQI PERSPEKTIVLƏRI

*Əzizli Nurlan Nizami oğlu, müəllim asistenti*
*Mingəçevir Dövlət Universiteti*

Dünyada yaşıl sahibkarlığın inkişafı müxtəlif maneələrlə məhdudlaşdırılır. Yaşıl sahibkarlıq ilk növbədə ekoloji məsələlər haqqında məlumatlı olmağı, eləcə də ekoloji problemlər üzrə texniki, hüquqi və bazar biliklərini tələb edir . yaşıl işləri maliyyələşdirmək üçün maliyyə bazarları kifayət qədər inkişaf etməmişdir. Bəzi ölkələrdə bu problemin həlli kimi yaşıl biznesləri maliyyələşdirmək üçün yaşıl banklar yaradılmağa başlanmışdır.

Bu gün yaşıl sahibkarlar davamlı inkişaf və bir çox müəssisələrin quruluş mərhələsində ekoloji cəhətdən təmiz bir müəssisə kimi fəaliyyətə başlaması baxımından mühüm dəyişiklik amili kimi qəbul edilə bilər . Yaşıl sahibkarlar tərəfindən yaradılan müəssisələr ekoloji dəyərləri təcəssüm etdirir, eyni zamanda cari və yaranan ehtiyaclara innovativ həllər təklif edərək mövcud bazarlara meydan oxuyur. Yaşıl sahibkarlar bazar və maliyyə məqsədlərini ətraf mühitin performansı ilə birləşdirən və yaşıl bazarların böyüməsinə və yayılmasına töhfə verən yeni biznes konsepsiyası yaratmaqla potensial sahibkarlar üçün nümunə ola bilərlər.

Ətraf mühit sahəsində yaşıl sahibkarlıq fəaliyyətlərinin və tədqiqat və inkişaf fəaliyyətlərinin artması, daha təmiz istehsal və davamlı istehlak üzrə tədqiqatların daha geniş kütlələrə yayılması qlobal miqyasda yeni sahibkarlıq sisteminin əsaslarını təmin edir. Yaşıl sahibkarlar yaşıl məhsul və xidmətlər təqdim etməklə, yaşıl istehsal üsullarını tətbiq etməklə və təşviq etməklə, yaşıl məhsul və xidmətlərə tələbi

artırmaqla və yaşıl iş yerləri yaratmaqla davamlı yaşıl iqtisadiyyatın yaradılmasına töhfə verirlər.

Bu gün insan fəaliyyətinin ətraf mühitə mənfi təsirini nəzərdən qaçırmaq olmaz. Təbii mühitin pis vəziyyəti qısa müddətdə insanların həyat səviyyəsinin keyfiyyətini aşağı salsa da, heç bir tədbir görülmədiyi təqdirdə uzunmüddətli perspektivdə insanların varlığını və real varlığını təhlükə altına alan amildir. Bu səbəbdən sahibkarlığın anlayışı, təcrübəsi və fəaliyyəti dəyişməlidir. Sahibkarlar biznesə təkcə iqtisadi deyil, həm də ekoloji və sosial ehtiyacları nəzərə alaraq yanaşmalıdırlar. Başqa sözlə, yaşıl sahibkarlığın əsas məqsədi artan insan ehtiyaclarına cavab olaraq ətraf mühitə zərər vermədən həll yollarını tapmaqdır. Yaşıl sahibkarlıq fenomeni tam qəbul edilmiş xətlərə malik deyil. Çünki yaşıl sahibkarlıq xüsusilə ölkələrə və sektorlara görə diferensiallaşdırılmış problemlər qarşısında fərqli reallıqlar göstərir və sosial və mədəni strukturdan təsirlənir [1].

Ətraf mühitin mühafizəsi dövrümüzün ən vacib məsələlərindən biridir. Ona görə də yaşıl sahibkarların sayını artırmaq üçün onlara dəstək vermək vacibdir. Texniki yardım və dəstək, infrastruktur imkanları, təlim proqramları, vergidən azad olunma kimi güzəştlər və rahatlıqlarla yaşıl sahibkarların sayı artırıla bilər. Cəmiyyətin yaşıl məhsul və xidmətlərə dair dəyərlərini və qavrayışlarını artıran təhsil və təcrübələr yaşıl sahibkarlığın inkişafı üçün müsbət amil ola bilər. İnkişaf etməkdə olan ölkələrin resursları məhdud olduğundan, inkişaf etdirilməsi arzulanan və ölkəyə fayda verəcək yaşıl biznes sektorları müəyyən edilməlidir. Kiçik və orta sahibkarlıq əksər ölkələrdə iqtisadiyyatın əsasını təşkil edir. İnkişafı hədəflənən yaşıl biznes sektorlarında kiçik və orta biznes sahiblərinə və ya yaşıl biznes ideyası olan sahibkarlara maliyyə dəstəyi, müvafiq qanunvericiliyin tənzimlənməsi və səmərəli tətbiqi, innovasiya bacarıqlarının gücləndirilməsinə, məşğulluğun artırılmasına səbəb olur , kiçik və orta müəssisələr böyüməyə məruz qalır. Təmiz texnologiya sərmayələrinin dəstəklənməsi və onların həyata keçirilməsinin təşviq edilməsi ətraf mühit haqqında məlumatlılığın artırılmasında rəqabət qabiliyyətini artırır. Universitetlər tərəfindən yeni ekoloji cəhətdən təmiz istehsal texnikası və prosesləri üzrə təlimlər keçirməli və bu məsələlər üzrə işgüzar bacarıqlar təmin etməli, eyni zamanda dövlət tərəfindən yaşıl iqtisadiyyata keçidi prioritetləşdirəcək tədqiqat layihələri üçün stimullar verilməli, davranış dəyişikliyi üçün lazımi şərait yaradılmalıdır. Tədqiqat və inkişaf işlərində yaşıl innovasiyalar təşviq edilməlidir. Bu gün bir çox təşəbbüslər ekoloji problemləri təhlükə kimi qəbul etməkdənsə, yaşıl təşəbbüs və yaşıl innovasiyaları davamlı gələcək üçün məqsədlərinin bir hissəsi kimi nəzərdən keçirməlidir. Uğurlu biznes mütləq ətraf mühitə və cəmiyyətə mənfi təsir göstərməli deyil. Dünya və bəşəriyyət üçün, davamlı gələcək üçün yaşıl və sosial inklüziv iqtisadiyyat həll yoludur.

Yaşıl sahibkarlıq anlayışı kifayət qədər yeni və məhduddur. Yaşıl sahibkarlığın ən böyük infrastruktur üstünlüklərindən biri akademik olaraq belə bir vizyonu təqdim edə biləcək universitetlərin innovasiya ( akselerasiya,inkubasiya) proqramlarının olmasıdır. Bu proqramlar imkan verir ki, Şuşada yaşıl sahibkarlıq fəaliyyəti göstərmək təşəbbüsü olan sahibkarlar , fəaliyyət göstərəcəkləri sahə üzrə xüsusi bilik və bacarıqlar əldə etsin. Ölkəmizdə “yaşıl” anlayışı marjinal qrupların diskursu kimi

qəbul edilir, yaşıl düşüncə isə davamlı və keyfiyyətli həyat üçün əvəzsiz şərt kimi qəbul edilmir. Yaşıl sahibkarlıq; ölkənin enerji, nəqliyyat, kənd təsərrüfatı, mədənçilik, təhsil, səhiyyə və sağlam qida istehsalında ən mühüm başlanğıc nöqtələrindən biri olmalıdır. Mövcud iqtisadi sistemin yaratdığı hər bir problem düzgün və davamlı yanaşmalar sayəsində problemdən çox fürsətə çevrilir. Nəhayət; yaşıl düşüncə və sahibkarlıq həyatın mənbəyidir. Bununla belə, resurslar sonsuz deyil, yalnız "yaşıl perspektiv" sonsuzdur[2].

Ədəbiyyat siyahısı:


1. Keskin, S. (2016). Yeşil Girişimcilik . Yalova Sosyal Bilimler Dergisi , 6 (12) , 285-294 . Retrieved from https://dergipark.org.tr/tr/pub/yalovasosbil/issue/27392/234202
2. Silajdzic, Irem & Kurtagić, Sanda & Vucijak, Branko. (2015). Green entrepreneurship in transition economies: A case study of Bosnia and Herzegovina. Journal of Cleaner Production. 88. 376-384.


## YENI IQTISADI ŞƏRAITDƏ SAHIBKARLIQ FƏALIYYƏTININ QIYMƏTLƏNDIRILMƏSI


*Hacıyev Azər Vahid oğlu*
*Mingəçevir Dövlət Universiteti*


Müxtəlif ölkələrdə sahibkarlıq fəaliyyətinin dəstəklənməsi və bu sahənin dövlət tənzimlənməsinin miqyasları, onun konkret forma və metodları müxtəlif xarakter daşıyır. Konkret olaraq sahibkarlıq fəaliyyətinin dəstəklənməsi və bu sahəyə yardım göstərilməsinin ümumi müəyyənləşdirilmiş hər hansı hazır konsepsiyasından danışmaq mümkün deyildir. Müasir reallıqlarda bazar və istehsal strukturları arasında səmərəli uyğunlaşma prosesinin yaradılması, ölkənin strateji maraqları baxımından mühüm əhəmiyyət kəsb edir. Qeyd etmək lazımdır ki, bu əlaqənin səmərəliliyi mahiyyət etibarilə iqtisadiyyatda kifayət qədər əhəmiyyətli bir prosesin hərəkətverici qüvvəsi kimi çıxış edir. Əksər hallarda bu iki subyekt arasında qarşılıqlı əlaqənin səmərəliliyinin təmin edilməsi iqtisadi inkişafın gedişində mövcud problemlərin aradan qaldırılmasında əhəmiyyətli rola malik olur.

İnkişaf etmiş ölkələrdə bazar mexanizmləri sahibkarların meydana gəlməsində mühüm rol oynamışdır. İnkişaf etmiş ölkələrdə sahibkarlığı inkişaf etdirən şərtlər mühüm elementlərdir, çünki onlar sahibkara və müəssisəyə birbaşa təsir göstərir.

Sahibkarlığa bilavasitə təsir edən şərtlər maliyyə şəraiti, kommersiya və hüquqi infrastruktur, təhsil, fiziki infrastruktura çıxış, dövlət siyasəti və proqramlar kimi nəzərdən keçirilə bilər. Bununla əlaqədar olaraq, inkişaf etmiş ölkələrdə sahibkarlığa kömək edən ümumi milli şərtləri aşağıdakı kimi qiymətləndirmək olar:

İnkişaf etmiş ölkələrin makroiqtisadi şəraiti: məlumdur ki, sahibkarlığın keyfiyyətinə xüsusilə sənaye sektoru və biliyə əsaslanan sektorlar təsir edir. Sahibkarlığın yaradılmasında işçi qüvvəsinin kvalifikasiyası və məşğulluq səviyyəsi böyük əhəmiyyət kəsb edir.